| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 20.02.2018 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1836 |
| **ADI** | Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 21-02-2018, Nəşr Nömrəsi: 40), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 28-02-2018, Nəşr nömrəsi: 02, Maddə nömrəsi: 200) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 21.02.2018 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 420.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 13201802201836 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 22.02.2018 |

**Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 fevral tarixli 981-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 5, maddə 765, 9, maddə 1650, 10, maddə 1789, 12, maddələr 2314, 2321; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 yanvar tarixli 1798 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 31-2-ci hissə əlavə edilsin:

"31-2. Məcəllənin 394.0.5-ci (açıq məkanda reklam qurğularının tikintisi zamanı tikinti norma və qaydalarının pozulmasına münasibətdə), 394.0.6-cı (açıq məkanda reklam qurğularının istismara verilməsi qaydalarının pozulmasına münasibətdə), 394.0.7-ci (reklam qurğularının tikintisi işləri ilə bağlı Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin göstərişlərinə və qərarlarına əməl edilməməsinə münasibətdə), 395.2-ci (açıq məkanda reklam qurğularına münasibətdə), 395.1-1-ci və 428.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

31-2.1. Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi adından – Agentliyin direktoru, onun müavini, Aparatın rəhbəri, Aparatda şöbə müdiri, onun müavini, sektor müdiri, baş mütəxəssis, böyük mütəxəssis (böyük müfəttiş), Bakı Şəhəri Reklam İdarəsinin və regional reklam idarəsinin rəisi, onun müavini, idarədə şöbə müdiri, onun müavini, sektor müdiri, baş mütəxəssis (baş müfəttiş), böyük mütəxəssis (böyük müfəttiş);

31-2.2. bu inzibati xətalar "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində törədildikdə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi adından – İdarənin İdarə Heyətinin sədri və digər üzvləri, Aparatın rəhbəri.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 fevral 2018-ci il
1836